**Hüseynbala Mirələmov**

# MAŞALLAHIN PANELİ

*Dostum Çingiz Tofiqoğluna*

Quşqulaq kəndinin insan qəlbini oxşayan sehr dolu sakitliyini və rahatlığını neçə həftə idi ki, Ermənistanın Gorus rayonu tərəfdən qradlardan və tanklardan açılan amansız atəş səsləri pozurdu. İşıqlı dağı barıt qoxulu tüstü içində boğulurdu. Qaragölün sağ sahilindəki el qəbiristanlığını sovet ordusunun tankları ilə yerlə yeksan edən ermənilər kəndin qaramal və qoyun sürülərinin də yığıb aparmışdılar. Odur ki, hamı səksəkə içində idi.

Kənddə vur-tut beş-altı quş tüfəngi vardı. Soltan bəydən – 1905-ci il erməni-müsəlman davasından indiyə qalmış bir neçə beşaçılan isə işə yaramırdı, daha doğrusu, çaxmaqları qırılmışdı, düzəltdirmək üçün usta tapılmırdı...

Kənd xəstəxanasında dava-dərman qalmamışdı. Həkimlər güllədən və yaxud mərmidən yaralananları bağayarpağı ilə sağaltmağa çalışırdılar. Rayon mərkəzi ilə əlaqə tamamilə kəsilmişdi. Ermənilərin hücumları isə ara vermirdi. Axşamkı mərmi yağışında doxsan yaşlı Hümbətalı kişi çarpayısındaca parça-parça olmuşdu. Kəndin lap yuxarısında yurd salmiş Soltanın gənc ailəsindən isə heç bir nişanə qalmamışdı. Mehralı nəslinin yan-yanaşı tikilmiş səkkiz evi alovlar içində qovrulurdu. Düşməni Qaragölün altında qarşılayan və döyüşdə həlak olan kənd cavanlarından üçünün cəsədini götürmək mümkün olmamışdı. Xocalı faciəsi zamanı düşmənin qəddarlığı, amansızlığı barədə yayılan xəbərlər hamının qəlbində vahimə yaratmışdı. Kəndin, ən azı, min illik tarixində, bəlkə də, ilk dəfə idi ki, gecənin zülmət qaranlığında hamı qəbiristanlıqda idi. Yanaşı qazılmış səkkiz qəbrin şəhid sakinləri ta qədimdən Zərdüşt inaclarına sadiq qalmışdılar. İndi də qaraağacın qabığını şam əvəzi yandırdılar. Mağar qurmaq, yas mərasimi keçirmək, ehsan vermək artıq mümkün deyildi...

Dan yeri yavaş-yavaş qızarırdı. Sükutu kəndin aşağı tərəfinə - Novlu bulağın həndəvərinə düşən qrad mərmisinin gurultusu pozdu. Sonra itlər hürüşdü, uşaq, qadın qışqırtısı bir-birinə qarışdı, lap yaxında avtomatların şaqqıltısı eşidildi.

– Hamı qaçır!..

Maşallah qonşusu Əkbərdən eşitdiyi bu sözlərin mənasını əvvəlcə başa düşmədi. Sonra diksinən kimi oldu və Əkbərə tərəf döndü:

– Ə, nə danışırsan, kim qaçır, hara qaçır?

Yekəqarın, yastısifət Əkbər kinayə ilə onun üzünə baxaraq dedi:

– Hamı qaçır, özü də hara gəldi. Ermənilər kəndin yuxarısındakı evlərin hamısına od vurublar. Sənə dedim, qoyunları sat! Sözümə baxmadın. İndi görüm onları necə aparacaqsan, hara aparacaqsan?

Maşallah qəzəbindən bığlarını çeynəyib, sərt və kinayə ilə cavab verdi:

– Ə, nə sürü? Düşmən qapını kəsdiribdir... – Sən dədənin qəbrinin dərdini çək...

Maşallahın yüz əlliyə qədər qoyunu var idi. Səkkiz inəyi yanı buzovlu, üç camışı yanı balağlı idi. Kəhər madyanı erkək bir kürük doğmuşdu. Bütün bunları yadına saldığı üçün özünü qınadı. Bir anlıq illərdən bəri tikib-qurduğu aynabəndli evini, həyətindəki meyvə ağaclarını, babalarının, qardaşlarının məzarlarını, kəndin axar-baxarlı örüşlərini, əkin-biçin sahələrini, Qaragölü, İşıqlı dağını, Çalbayırı, Pəri çınqılını gözləri önünə gətirdi. Yanaqlarından süzülən duzlu su dodaqlarını isladanda hiss etdi ki, ağlayır.

Maşallah həyətdən çıxanda gördü ki, yamac boyu sıralanmış evlərin hamısında adamlar əl-ayağa düşüblər. Kimi arabsını, kimi at və ulağını yükləyir...

Quşqulaq Laçının ən ucqar dağ kəndlərindən biri idi. Əslində, bu, kənd deyil, cənnət idi. Yazda gül-çiçək sərgisi, yayda yaylaq və mer-meyvə bazarı, payızda ot tayaları, qışda ağappaq qarı... Bir sözlə, kurort idi. Deməli, Quşqulağa əlvida!..

– Ay kişi, nə orda quruyub qalmısan, görmürsən camaatı? Gəl yır-yığışa kömək elə. Yoxsa, əliyalın, təkbaşına ermənilərlə dava eləyəcəksən? – Arvadı Səlminazın səsi Maşallahı fikirdən ayırdı.

– Qoy sürünü, dana-buzovu çölə buraxım, sonra...

– Ay kişi, məxluq öz canının hayındadır, sən qoyun-quzu dərdi çəkirsən? Gəl arvad-uşağını bir yana çıxart. Güllə səsini, camaatın çığır-bağırını eşitmirsən?

Maşallah yenə quruyub qaldı:

– Deyirsən, sürünü qoyub gedək? Qalsın erməni dığalarına?

– Erməni dığalarından elə uşaqlarını qoruya bilsən, böyük işdir. Sürü canından artıqdır?

Yaxşı ki, Sərvinaz zirək və diribaş idi. Artıq neçə bağlama hazırlamışdı. Anası Əsli uşaqları geyindirirdi. Yalnız qaynatası əsasına söykənib mat-məəttəl bu yır-yığışa baxır və düşünürdü: "Əşşi, belə də zülm olar? Bu cür evi, həyət-bacanı, illər boyu əkib-becərdiyin meyvə ağaclarını, qoyun sürüsünü, yunu, yorğan-döşəyi, xalça-palazı atıb necə gedəsən? Lap, tutalım, bunların hamısını yükləyib apardın, bəs dədə-baba qəbirlərimiz, bəs, doğma yurd necə olsun?"

O, bu düşüncələr içində qovrularkən gəlini Səlminazın səsi gəldi:

– Dədə, bəs niyə yığışmırsan?

– Yaxşı, bəs, hara gedirik, qızım?

– El hara, biz də ora. – Səlminaz iri bir bağlamaya düyün vuraraq ayağa qalxdı və əli ilə kəndi göstərdi.

Maşallah dönüb yamac boyu sıralanmış evlərə bir də baxdı. Kəndin bütün itləri hürüşürdü. Səs-küydən qulaq batırdı. Heyvanlar, elə bil, fəlakət baş verdiyini hiss eləmişdilər. Kənd tüstünün, qara-qışqırığın içində boğulurdu.

–A kişi, nə durmusan orda, gəlib bunu dartsana?

– Yaxşı, Səlminaz. – Maşallah, istər-istəməz, arasına xalça-palaz yığılmış örkəni dartıb düyünləyə-düyünləyə arvadından soruşdu:

– Axı, hara gedirik?

Səlminaz bağlı yükü dişi aslan kimi götürüb kənara qoydu:

– Camaat hara, biz də ora...

Maşallah daha bir kəlmə də demədi...

***

Fərman kişi nə müddətdən bəri üzünü qırxdıra bilmədiyindən, saqqalı, az qala, sinəsinə qədər uzanmışdı. Ağdam bazarından on il əvvəl aldığı buxara papağının küncələrinin qıvrım tükləri tökülmüş, kirqarışıq ağ-qara zolaq yaratmışdı. Fərman kişi əlini cibinə saldı. Qəlyanını, tütün kisəsini və alışqanını götürdüyünü yəqinləşdirib arxayınlaşdı. Hər yay Soltan Heydər yaylağında qurduqları alaçığın çubuqlarından dörd dənəsini keçi qəzilindən toxunmuş çatı ilə sarıyıb toqqasına bağladı.

Bunu görən Maşallah atasına yaxınlaşdı:

– Əşşi, camaat nə hayda, sən nə hayda? Bu çubuqlar nəyinə gərəkdir?

– Leysan ayıdır, ay oğul. Hər an yağa bilər. Körpə balaların, qoca ata-anan. Qarşıda bizi nələr gözlədiyindən xəbərsizik. Axşamlar bir çətən külfəti hara yığacaqsan? Bu çubuqlarla bir koma qaraldar, üstünü cejim-palazla örtərik.

Maşallah səsinə həlimlik qatdı:

– Dədə, onları mən götürərəm. Sən uşaqları apar. Görüm maldan-qoyundan nə gətirə bilirəm.

Bir azdan mal-qara böyürtüsü, qoyun-quzu mələrtisi və itlərin hürüşməsi kənddən xeyli uzaqlarda eşidilirdi...

***

Quşqulaq kəndi yavaş-yavaş sükuta qərq oldu. Adamlar, yorğan-döşəklə, xalça-palazla yüklənmiş arabalar, atlar və ulaqlar dar cığırları ilə yavaş-yavaş dərəyə enməyə başladı. Ara vermədən hürən itlərin müşayiəti ilə qədim elat səfərinə oxşayan bu köç elə hey uzanıb gedir, qurtarmaq bilmirdi.

1992-ci ilin yazı idi. Beləcə, rahat ev-eşiklərindən, həyət-bacalarından, var-dövlətlərindən ayrı düşüb, çətin, keçilməz dağ yollarına səpələnmiş ailənin didərgin həyatı başlandı.

Dağlara möhkəm yağış yağdığından, Həkəri çayının şaqqıltısı, nəriltisi, az qala, qulaq batırırdı. Gorusun Dığ kəndində yerləşdirilmiş erməni-rus hərbi birləşmələri artilleriya atəşinə ara verməsələr də, çayın sol sahilini dəqiq nişan ala bilmirdilər. Güneyə düşən mərmilər ilan kimi qıvrılan yollarda ardı-arası kəsilməyən köçü yolundan sapdıra bilmirdi.

Fərman kişinin dizi taqətdən düşmüşdü. Həkərinin köpüklü sularına baxa-baxa xəyalən cavanlıq günlərinə qayıtdı.

...Elə onda da yaz ayları idi. Göyçədə, Dərələyəzdə, İrəvan mahalında kəndlərimizi talan edib, minlərlə Azərbaycan türkünü diri-diri yandıran, güllələyib xəndəklərə tökən tayqulaq Androniki, 1905-ci il erməni-müsəlman davasını xatırladı. Onda Andronik növbəti hiyləyə əl ataraq, Soltan bəydən Aşağı Qarabağa keçmək üçün yol istəmişdi. Bəy cavab vermişdi ki, mənim əsgərlərim sənin silahlı ordunu görsələr dinc durmazlar. Sən bütün silahlarını atına, eşşəyinə yükləsən, adamların əlisilahsız olsalar, Zabuxdan yol verə bilərəm. Hiylə işlətmək istəyən tayqulaq Andronik müdrik Soltan bəyin qurduğu tələdən çıxa bilmir...

Günortaya yaxın erməni ordusu Dığdan Zabuxa tərəf hərəkətə başlayır. Həmin döyüşdə bütün daşnaqları Soltan bəyin gülləsinə və Həkərinin kükrəyən sularına qurban verən Andronik iki-üç yaxın adamı ilə qaçıb aradan çıxa bilir.

Maşallahın:

– Dədə, kimi gözləyirsən? – sualı Fərman kişini xəyaldan ayırdı.

Toran qovuşurdu. Qubadlının Sel yeri kəndinin camaatı uşaqdan-böyüyə elat yoluna çıxmışdı. Dəyirmançı Fəttah kişi də burada idi. Hamı köçhaköçün qarşısını almaq, dayandırmaq istəyirdi. Heyhat... Fəttah kişi çətinliklə də olsa, Fərman kişini tanıdı. Həmin gecə başlanan didərginlik elə həyatının son gecəsi oldu.

Köç arana doğru gedirdi. Bir aylıq məşəqqətli köç yolu Ağcabədinin Taxta körpü adlanan ərazisində - Laçının qış yataqlarında, müvəqqəti olsa da, sona yetdi. Maşallah Qarğabazarda atasını, Harami düzündə isə Lalə adında səkkiz aylıq qız nəvəsini itirdi.

Kür qırağının isti, ağcaqanadlı, milçəkli, ciyər dolusu nəfəs almağa çatmayan boğuq havası Səlminazı malyariya xəstəliyinə saldı. Mal-qara, qoyun-quzu qızdırdı. Çoxunun əti də ələ gəlmədi. Yerdə qalanları isə dəyər-dəyməzə satan Maşallah köçünü Bakıya tərəf sürdü. Xocahəsən gölünün sağ sahilində - Yasamal tərəfdəki şamlıqda dalda bir yer tapdı. Kənddən çıxanda atasının bir yerə toplayıb bağladığı dörd çubuqdan, sürtülüb əldən düşmüş xalça-palazdan alaçıq düzəldib ora sığındılar.

O, həmişə maldan, qoyundan, atdan, ulaqdan satıb dar gün üçün bir az pul yığdığına şükür edirdi. Alt köynəyinə tikib saxladığı o qəpik-quruş olmasaydı, deməli, dilənçilik eləməli olacaqdılar. O, əlbəttə, dünənki gecəni – alaçıqda yatdıqları ilk gecəni heç vaxt unutmayacaqdı. Uşaqlar perik düşmüş quşlar kimi nənələrinin qucağına sığınmışdılar. Maşallah nə qədər yorğun olsa da, gözünə yuxu getmirdi.Qəhər onu boğur, için-için ağlayırdı. Səsini içində gizləyirdi. Onun gözlərində oxunan lal fəryadını, boğulmuş hıçqırıqlarını yalnız yas içində üzülən ürəyi eşidirdi. İçindəki bu yası o, doğma yurduna – öz itən dünyasına tutmuşdu. O, Tanrıdan özünə ölüm dilədi. Bu vaxt, elə bil, uşaqlardan kimsə yuxuda zarıdı. Maşallah özünə gəldi. Bəli, bu zarıltı körpə səsi idi. Onun bu körpə qarşısında borcu çox idi. O, yaşamalı, mübarizə aparmalı, doğma torpaqlarını düşməndən geri almalıydı. Sonra isə rahat ölə bilərdi...

Bəli, gecənin səssizliyində eli-obası, ailəsi, uşaqları, doğma torpaqları qarşısında məğlub əsgər kimi susur, sonra yenidən hönkürür, hönkürürdü...

O, səhəri dirigözlü açdı. Hava yenicə qızırdı. Uşaqlar alaçığın qabağında oynayırdılar. Bir az aralıda – Bakı – Sumqayıt yolunda maşınlar şütüyürdü. Ömrü boyu dağların sakitliyinə, səssizliyinə öyrənmişdi Maşallah. İndi bu maşın karvanının səsundən bezsə də, görəcəyi işlər barədə fikirləşirdi: "Sabah bir az məftil alıb həyəti çəpərləyim. Sonra iş axtarım. Allahın köməyi ilə fəhləlik də olsa, bir iş tapa bilsəydim, dərdim olmazdı".

Elə bu zaman kəhrəba dənəsinə bənzər bir arı Maşallahın ətrafında vızıldaya-vızıldaya fırlanıb getdi. Maşallahın köksündən qeyri-ixtiyarı bir fəryad qopdu. Həyətlərindəki uzunsov arı pətəkləri yadına düşdü. O, pətəklərin çoxunu cökə ağacından özü yonub düzəltmişdi. Hər yaz qaranlıq düşəndə pətəklərin ağzını bağlayar, sübh tezdən Göy bulağın üstündə düzəltdiyi arıxanaya köçürərdi. Saatlarla səssiz-səmirsiz oturub, təbiətin bu möcüzəli varlığına göz qoyardı.

Göy bulağın həndəvərində dünyanın ən gözəl çiçəkləri bitirdi. Kəklikotu, alma yoncası, qantəpər, gülxətmi, baldırğan çiçəkləri arıların ən çox şirə çəkdikləri qida mənbəyi idi.

Bayaqkı arı yenidən Maşallahın başı üstə fırlandı. Sonra Səlminaza tərəf uçdu. O, əlləri ilə sifətini qorudu. Əsli arvad yaşına yaraşmayan bir qıvraqlıqla yerindən qalxdı:

– Ay bala, o nə arıdır, vallah, kənddən çıxandan bizdən ayrılmayıb. Odey, bankaya şirə qaynadıb qoymuşam. Sizə demirdim ki, kövrələrsiniz, ürəyiniz göynəyər. Hər dəfə o arı evdə fırlananda Göy bulaq, İşıqlı dağ, Soltan Heydər yaylağı, Quşqulağın güneyindəki güllər-çiçəklər gözlərimin qarşısına gəlir. Allah mərdimazara qənim olsun...

Maşallah, elə bil, anasının sözünü eşitmirdi. O, sanki arıyla heç kimin başa düşmədiyi bir dildə danışırdı:

– Ay kəhrəba dənəsi, bəlkə bizim rəddimizə düşüb gəlmisən? Ermənilər pətəkləri də yandırdılar? Evimizin izi-tozu qaldımı? Hər şeyi talayıb aparanda niyə onların gözlərinin didəsindən sancmadın? Niyə bizim qisasımızı almadın?

Maşallahı sanki ildırım vurdu. Alnından süzülən tər boynunu-boğazını islatdı. Arıya nəsə demək istədi. Ancaq o, artıq uçub getmişdi...

Maşallah uzun zaman bu hadisəni unuda bilmədi...

Vaxt ötdükcə, öz qəfəsinə öyrəşən quş kimi, Maşallah da öz alaçığına öyrəşirdi. O, alaçığa su da çəkdi, işıq da, qaz da...

Gecələr səhərə kimi gözünə yuxu getmirdi. Bu uzaq, nəhəng, hardasa doğma, hardasa yad şəhərdə onu və ailəsini yeni bir həyat – çətin, mübarizə ilə dolu bir həyat gözləyirdi. Altmış üç yaşlı dağ adamı bu çətinliklərin öhdəsindən təkbaşına gələ biləcəkdimi? O, sağlam idi, sement kisəsini rahatca qaldırıb, çiynində apara bilərdi. Ancaq onun bu gücünə hələ ehtiyac yox idi. Çətinlik də bunda idi. Lakin onun dayanmağa, geri çəkilməyə və məğlub olmağa haqqı yox idi.

Fəlsəfədən başı çıxmırdı. Amma böyük həyat təcrübəsi keçmişdi, sağlam ağlı vardı və bu ağıl onu səhv addım atmaqdan qoruyurdu. Əsas məsələ payız gələnə qədər boş bir ev tapmaq, ya da burada bir otaq tikib, uşaqları xilas etmək idi.

Ucqar dağ kəndində “UAZ”dan, “Niva”dan başqa maşın görməyən uşaqlar çox vaxt yolun qırağına çıxıb rəngbərəng, əsasən də, xarici maşınlara təəccüblə tamaşa edirdilər. Belə vaxtlarda Əsli nənənin ürəyi dözmür, səsi kənddəki kimi aləmi başına götürürdü. Onun bu təlaş dolu qayğıkeş səsini eşidəndə Maşallah bığaltı gülümsəyirdi.

Maşallah səhər şirinçayla çörəyini yeyib, şəhərin tanımadığı küçələrindən birində yeni inşa edilən binaya yaxınlaşdı. Üç-dörd fəhlə və onlara göstəriş verən prorab nə barədəsə mübahisə edirdilər, başqa birisi isə nəhəng kranın pəncərəsindən yəqin ki, onların göstərişini gözləyirdi. Maşallah yaxınlaşıb salam verdi. Gözucu onu süzüb yalnız başlarını tərpətdilər. Sonra Maşallahın proraba oxşatdığı adam əlini cibinə salıb bir əllilik çıxartdı və ona tərəf uzatdı.

– Səhərin gözü açılmamış qoymazlar ki... – dedi.

Maşallah qızarıb, əvvəlcə nəsə kobud bir söz demək istədi. Ancaq hirsini boğub:

– Qardaş, mən dilənçi deyiləm, - dedi.

Prorab dönüb tərs-tərs ona baxdı:

– Bəs nə istəyirsən?

– İş axtarıram.

– Nə? – Prorab bərkdən dilləndi.

Fəhlələr qəhqəhə çəkdilər.

– Get-get, ay kişi, burada iş nə gəzir? Get, mane olma.

Maşallah əlacsız qalıb başqa göydələnlərə tərəf üz tutdu və orda daha kəskin istehza ilə qarşılandı. O, bilirdi ki, olan-qalan nə varsa, beş-on günə qurtaracaq, odur ki, mütləq iş tapmalıydı. Beləcə o, nahar etmədən tikinti meydançalarını dolaşdı. Daş daşımağa, sement qarışdırmağa, zir-zibil təmizləməyə, əlindən nə iş gəlirsə, hər şey etməyə hazır idi. Amma onun kimi bu işləri bacaranlar yüzlərlə, minlərlə idi. Buna görə də, hər yerdə eyni cavabları alırdı. Axşamüstü, yorğun, ac-yalavac alaçığına gəldi. Nə qədər üzünə nikbin və şən ifadə verməyə çalışsa da, Əsli arvadla Səlminaz o dəqiqə işin nə yerdə olduğunu hiss etdilər.

İştahasız çörəyini yeyib çölə çıxdı, kətilin üstündə oturub fikrə getdi. Əsli arvad Səlminazın çay aparmaq istədiyini görüb padnosu ondan aldı və oğlunun qarşısına qoyub:

– Nədir, nə olub? – deyə soruşdu.

– Heç... Heç yanda iş tapmaq olmur. Belə getsə, bilmirəm neyləyəcəyik?

– Darıxma, oğul. Özünü üzmə, bala... Ananın da bir az ehtiyatı var, acından ölmərik...

Maşallah gülümsəyib, anasının qırış düşən doğma, mehriban üzünə baxdı və fikirləşdi ki, cəmi neçə ay bundan qabaq kənddə anasının üzündə belə dərin qırışlar yox idi...

***

Aylı gecə idi. Uşaqlar yatmamışdılar. Səlminaz evin qabağında saman üstə palaz sərib tikiş tikirdi. Əsli arvad eynəyini taxıb Quran oxuyurdu. Qonşu evdən musiqi sədaları gəlirdi. Bir az aralıdan isə ara vermədən ötüb keçən maşınların uğultusu, siqnal səsləri eşidilirdi. Maşallah sabah Alatava tərəfə gedəcəyini düşünüb, orada bir iş tapacağına ümid edirdi. Çünki lap axşamüstü təsadüfən rastlaşdığı qonşusu ona məsləhət görmüşdü ki, Alatava tərəfə getsin, tikintidə özünə bir iş tapa bilər.

Maşallah səhər tezdən üzü yuxarı – Alatava tərəfə qalxdı. Tikilməkdə olan doqquzmərtəbəli binalardan birinə baş çəkdi. Təsadüfən iki-üç gün əvvəl Bakıya gəlmiş həmkəndlisi ilə rastlaşdı.

Həmkəndlisi soruşdu:

– Nə var, nə yox? Yolu necə gəldiniz?

– Çətin də olsa, Bakıya çatdıq.

– İş tapmısan?

– Hələ yox, bekarçılıqdı.

– Ə, bilirsən nə var? Bayandurlular hər gün Yeni Yasamalda tikilən doqquzmərtəbəli binanın ətrafına yığışırlar. O binanın mənzilləri ucuz satılacaq, özü də nisyə. Qaçqınlar əvvəlcədən adlarını yazıb panel divarları nişanlayırlar. Deyilənə görə, adını yazdığın panel hansı mərtəbəyə, hansı mənzilə düşsə, səninkidi.

Bu xəbər Maşallahı bir xeyli sevindirdi. Görəsən gecikməmişdi ki? Artıq bir saatdan sonra o, Yeni Yasamalda idi. Xoşbəxtlikdən panellərin hamısı daşınmamışdı. Maşallah diyircəkli qələmlə, çətinliklə də olsa, panellərdən birinin üstünə adını yazdı. Sonra yazının nəzərə çarpmadığını görüb, rezin parçasını yandırdı, külünü maşın yağı ilə qarışdırıb böyük hərflərlə "MAŞALLAH!" sözünü təzələdi. Sevincindən az qalırdı oynasın. O, daha ümidsiz deyildi. Heç kimə boyun əyməyəcəkdi, heç kimə əl açmayacaqdı. Təki evi olsun, işləyib pulunu ödəyəcəkdi...

Axşam Səlminazı yanına çağırdı.

– Nə var? Çiçəyin açılıb, xeyir ola? – Səlminaz şad bir xəbər eşidəcəyini hiss edib, gülə-gülə soruşdu.

– Xeyirdir. Evimiz olacaq. Bizimçün doqquzmərtəbəli ev tikilir.

– Bir ev bu qədər məxluqun hansına çatacaq?

– Nə bilim? Sən demə, çoxdan tikilirmiş. Sağ olsun, kimsə xeyirxah iş görüb, nisyə tikir...

***

Nəhayət, sentyabrın ortalarında, binanın tikintisi başa çatdı. Maşallah sübh tezdən bir-bir bloklara girib öz panelini axtarmağa başladı – ikinci blokda yeddinci mərtəbədən azacıq aşağıda – divarda "MAŞALLAH!" sözünü oxuyanda nə edəcəyini bilmədi. Əsl möcüzə baş vermişdi: onun adını yazdığı panel liftə düşmüşdü...

2004